# Heydər Əliyev kitabı

"Hər bir insanın ömrü bir kitaba bənzəyir. ...Kitabın məzmunu hər şeydən əvvəl, bilavasitə müəllifdən asılı olduğu kimi, insan ömrünün də əsas məzmunu xeyli dərəcədə onun özündən asılıdır" - Çarlz F.Coferi insan haqqında belə düşünürdü. Müasir Azərbaycan dövlətinin hər bir vətəndaşı məzmunu Azərbaycanla bağlı olan Heydər Əliyev kitabını oxumalı və minnətdarlıq hissini ifadə etməlidir.

Heydər Əlirza oğlu Əliyev 10 may 1923-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. Ali təhsil aldıqdan sonra müxtəlif məsul vəzifələrdə işləyən Heydər Əliyev Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi seçilmiş, uzun illər ölkəmizə rəhbərlik etmişdir. Tərcümeyi-halının təfərrüatlarına varmadan əminliklə demək olar ki, o, ömrünü Azərbaycana, doğma vətəninə həsr etmişdir.

Heydər Əliyev ölkəmizdə olan qarşıdurma zamanı-15 iyun 1993-cü ildə hakimiyyətə qayıtdı, ölkəni fəlakətdən xilas elədi. Bir-birini tez-tez əvəz edən hakimiyyət nümayəndələri ölkədə qarşıdurma şəraiti yaratmışdılar ki, Vətənimizi bu vəziyyətdən ancaq hadisələri doğru qiymətləndirib qətiyyətli qərarlar verən Heydər Əliyev xilas elədi. Həmin ilin iyun ayının 24-də H.Əliyev Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Ümumxalq səsverməsi ilə 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçildi. Heydər Əliyev hakimiyyətə gəldiyi zaman ölkə daxilindəki ziddiyyətlər məngənəsində, müharibə şəraitində idi. Respublika daxilində ictimai-siyasi vəziyyətə nəzarət üçün qanunsuz silahlı qruplaşmalara qarşı mübarizə aparan Ali Baş Komandan bununla yanaşı işğalçı ermənilərin hücumlarının qarşısını almaq məqsədi ilə qətiyyətli və operativ tədbirlər görməli idi. 2 noyabr 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Dövlət Televiziyası və Radiosu ilə xalqa müraciət edərək müharibədən çıxış yolunu düşmənə qarşı birləşməkdə gördüyünü bildirdi: "Ordunu bir gündə, bir ayda, üç ayda yaratmaq mümkün deyil. Ancaq iki-üç il müddətində ordu yaratmaq, Azərbaycanın etibarlı müdafiəsini təşkil etmək olardı. Təəssüf ki, bu fürsətlər əldən verilib". Yəni ölkədə qarışıqlıq, özbaşınalıq aradan götürülməli, xalqın birliyi təmin edilməli idi ki, əsas diqqəti ordunun təşkilinə yönəltmək mümkün olsun.

Müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli liderin bu müraciətindən sonra yeni ordunun formalaşdırılması üçün vacib işlər görüldü. Silahlı Qüvvələrin qurulması sahəsində atılan ciddi addımlardan sonra erməni ordusunun yeni ərazilərimizi işğal etməsi prosesi tamamilə dayandırıldı. Ordu sistemindəki quruculuqla yanaşı H.Əliyev ölkədəki ictima-siyasi sabitliyi bərpa etdi, hər bi sahədə köklü islahatlar apardı, xarici investorların ölkəmizə gəlməsi üçün mühim işlər gördü.

Daim azərbaycanlı olması ilə fəxr edən Heydər Əliyev ölkənin iqtisadiyyatının, mədəniyyətinin, xalqın dilinin və başqa dəyərlərinin inkişaf etdirilməsində, dünyada tanıdılmasında əvəzsiz rol oynamış dahi şəxsiyyətdir. Ömürü Azərbaycanla bağlı olan Heydər Əliyevin ömür kitabı həmişə hamı üçün maraqlı olmuş, indi də hər kəs tərəfindən səhifə-səhifə oxunur. Təkcə Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasının internet səhifəsində və digər axtarış səhifələrində Heydər Əliyev şəxsiyyəti haqqında xeyli kitablar, məqalələr, müsahibələr vardır. Lakin ulu öndərlə bağlı ən dəyərli fikirlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, həm də 1983-cü ildən Heydər Əliyev ailəsinin üzvü olan Mehriban xanım Əliyevaya məxsusdur.26 may 2005-ci ildə "İzvestiya" qəzetində müsahibəsi zamanı jurnalist Oleq Sıqanov Mehriban xanıma sual verir:

"**Sual:** Atanın və oğulun xüsusiyyətlərini necə müqayisə edərdiniz? Heydər Əlirza oğlunun hansı keyfiyyətləri Sizin üçün xüsusilə yaddaqalandır?

**Cavab**: Şübhəsiz ki, oxşarlıq var. Bu, özünü çox şeydə göstərir. İlk növbədə intellektdə və xasiyyətdə.

Heydər Əlirza oğlu barədə suala bir müsahibə çərçivəsində cavab vermək mümkün deyil. Onun haqqında çoxlu kitab yazılmışdı. Lakin təəssüf ki, onların heç biri onun şəxsiyyətinin bütün əzəmətini əks etdirmir. İlk növbədə, əlbəttə ki, Heydər Əlirza oğlu aydın ifadə olunan xarizmaya malik idi. Onun enerjisi ətrafda hər şeyi dəyişməyə qadir idi. Onun gəlişi ilə hər şey dəyişirdi. Onun fantastik yaddaşı, intellekti, hədsiz məlumatlılığı bəzən həlli müşkül görünən problemləri həll etməyə imkan verirdi. Mahiyyət etibarilə Heydər Əliyev fenomeni hələ də sonadək açılmamışdır. Tarixin sovet dövründə Heydər Əliyev haqqında çox yazırlar, Azərbaycanda sanki ümidsiz görünən vəziyyəti onun necə dəyişə bildiyini, yaxud Heydər Əliyevin necə "hakimiyyət ustası" olduğunu anlamağa çalışırlar. Lakin bütün bunlar eyni bir adam barədədir. Bu yazılarda liderin həm praqmatik, həm də strateq ola bilməsinin fəlsəfi baxımdan dərk edilməsi çatışmır.

O, ailədə, gündəlik ünsiyyətdə olduqca sadə idi. Uşaqları, nəvələri ilə onu təkcə qohumluq əlaqələri bağlamırdı. Həddən artıq məşğul olmasına baxmayaraq, onların hər birinə həssas qayğıkeşlik göstərirdi.

Ancaq onu müqayisə etmək çox çətindir. Heydər Əliyev əzəmətli, bənzərsiz şəxsiyyətdir! Xasiyyətinin hansısa cəhətləri, xüsusiyyətləri onun uşaqlarında, nəvələrində yaşayır. Lakin təbii ki, onlar başqadırlar. Yeni dövr yeni yanaşma tələb edir, həyat bir yerdə dayanmır".

Ümummilli liderin "azərbaycançılıq" ideologiyasını inkişaf etdirən Mehriban xanım 2005-ci il 1 may tarixində "Caspian Energy" jurnalına verdiyi müsahibədə qeyd edir: "Belə gətirib ki, Fond əsas diqqəti yetim uşaqlara, müxtəlif ağır xəstəliklərdən əziyyət çəkən uşaqlara ayırıb. Fondun uşaqlara belə yüksək səviyyədə qayğı göstərməsi Heydər Əliyevin istəyi və vəsiyyəti idi. Eyni zamanda, Heydər Əliyev Fondu çoxsahəli ictimai təşkilatdır. Gördüyünüz kimi, biz artıq səhiyyə, elm, məlumat, mədəniyyət, təhsil və başqa sahələrdə fəaliyyət göstəririk".

Cəmiyyət üçün layiqli, təhsilli, faydalı, məsuliyyətli vətəndaş yetişdirməyi dövlətin prioritet məsələsi hesab edən Heydər Əliyev "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır" deməklə uşaqları qiymətli sərvət sayması liderimizin uzaqgörən siyasətinin əlamətidir. 27may 2009-cu ildə "Baku"jurnalına müsahibəsi zamanı jurnalın müxbiri Heydər Əliyev Fondunun prezidenti, ölkənin birinci xanımına müraciət edir:

"**Sual:** Oğlunuzu babası Heydər Əliyevin adı ilə adlandırmısınız. Onun xarakterində ümummilli liderə xas xüsusiyyətlər varmı?



Mehriban Əliyeva: Məqsədyönlülük və daxili özünüidarəetmə. Emosional təmkinlilik və bununla yanaşı dərin səmimilik. Çox ümid edirəm ki, gələcəkdə mənim oğlum babası kimi mətin iradə və ruh yüksəkliyinə malik olacaq".

Bizim fərd olaraq kiçik yaşlardan arzularımız, xəyallarımız olur və onları həyata keçirmək üçün biz məqsədyönlü, qətiyyətli, daxili özünüidarəetməyə malik olmalıyıq. Çox vaxt uğursuzluğa düçar olduqda, məqsədimizə nail olmadıqda ruh düşkünlüyü yaşayırıq. Heydər Əliyevin bioqrafiyasını oxuduğumuz zaman ulu öndərin seçimlərinin düzgün olması və onun məqsədyönlüyü, enerjisi, əzmkarlılığı hər birimizə nümunədir.

Heydər Əliyev "Qayıdış" adlı sənədli filmində deyir: "13-14 yaşlarında Naxçıvan Dövlət Teatrının tamaşalarına çox böyük həvəs və maraqla baxırdım. İbrahim Həmzəyevin ifa etdiyi rolların vurğunu idim. Sonralar eşitdim ki, İ.Həmzəyev dram dərnəyi təşkil edib. Mən o dərnəyə yazıldım və həvəslə iştirak etdim.

Mən teatrla gənc yaşlarımdan məşğul olmuşam. Baş rollarda oynamışam. Mən həmişə teatra yaxın və bağlı adam olmuşam. Bu ötəri hiss deyil, içimdən gələn bir məhəbbətdir. Teatrı çox sevirəm. Teatra məhəbbət mənim içimdə var".

Heydər Əliyevin qayıdışı ilə respublikamızda təhsil, elm, mədəniyyət, səhiyyə, elm sahələri diqqətdə saxlanılıb inkişaf etdirildi. Azərbaycan mədəniyyətinin hamisi olan Heydər Əliyevin bu sahədə varisi sayılan Mehriban xanım Əliyeva Heydər Əliyevin bu missiyasını davam etdirmək üçün Heydər Əliyev Fonduna rəhbərlik edir. "Mehriban Əliyeva-Azərbaycan mədəniyyətinin hamisi" kitabını vərəqləyərkən orada Mehriban xanıma aid belə bir kəlamı oxuyuruq:

"Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir, odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir.

Kimsənsə, elə də olmalısan-bax, budur bizim həyatımız. Ona görə də özgələrin rollarını və obrazlarını gərək öz üzərinə götürməyəsən... Çünki sən də, dünyada yerin də yeganə və bənzərsizdir".

Həyatda Heydər Əliyevin ən böyük rolu Azərbaycanı xaosdan, vətəndaş qarşıdurmasından, dövlət müstəqilliyini itirilməsi təhlükəsindən xilas etməsidir.

2014-cü il 26 avqust tarixində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva "Baku" jurnalına müsahibəsi zamanı müxbir soruşur:

**"Baku":** Dostoyevski deyib ki, gözəllik dünyanı xilas edəcək. Bu belədirmi? Qadınlar dünya hadisələrinin gedişatına təsir edə bilərmi, yoxsa bütün qərarlar kişi siyasətçilərdən asılıdır?

- Dostoyevski öz qəhrəmanının dili ilə mənəvi gözəllikdən, pisliyin insanların normal vəziyyəti ola bilməyəcəyindən, yalnız Xeyirin həqiqətən də gözəl olmasından bəhs edib. Əgər planeti məhv olmaqdan qoruyacaq bir şey olacaqsa bu, Xeyirdir. Fikrimcə, burada gender sualının əlaqəsi yoxdur".

Rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətindən də gördüyümüz kimi xeyirxahlıq rəmzi olan Mehriban xanım vücudunda çox böyük ürək daşıyır. H.Əliyevin etdiyi xeyirxah işləri bu gün Mehriban xanım davam etdirərək milli-mənəvi dəyərlərimizin hifz edilməsi istiqamətində yorulmadan çalışır, Mehriban xanımı ümid bilib müraciət edən hər kəsə təmənnasız köməklik göstərir.

"Heydər Əliyev müdrik, güclü, cəsarətli, nəhəng intellektə və yenilməz iradəyə malik olan bir insan idi. Eyni zamanda, onun ailə üzvü olaraq demək istərdim ki, o, çox xeyirxah, mərhəmətli və humanist insan idi. Adi insanlarla münasibətdə o, çox sadə və ədalətli idi..."- Mehriban xanımın Heydər Əliyev haqqında bu fikri Mehriban xanımın özünə də aid etmək olar. Mehriban xanım mədəniyyət, təhsil, idman, dünya miqyaslı idman və musiqi yarışları ilə bağlı fəaliyyəti ölkəmizin təbliği üçün möhtəşəm və düşünülmüş layihələrdir.

Ümummilli liderimiz Heydər Əliyevin həyat kitabını hər kəs, hər bir azərbaycanlı vərəqləyərək özünə lazım olan səhifəni tapıb oxuyur. Bu ona görə lazımdır ki, həyat yollarında büdrəmədən məqsədimizə doğru inamla gedən, doğma Azərbaycanımızın çiçəklənməsi üçün əlimizdən gələni edək. Ali baş komandan İlham Əliyevin, ölkəmizin birinci xanımı Mehriban xanım Əliyevanın tarixdən silinməz xidmətləri ulu öndərin kitabına yeni-yeni parlaq səhifələr əlavə etməkdədir.

*Əzizə Ələkbərova*
***AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun elmi işçisi***